**vBooks mobil proqramını yaratmaq qərarı nə ilə bağlıdır**

Gündəlik həyatın dinamikasının artması və vaxt çatışmazlığı şəraitində istifadəçilər (potensial oxucular) internet portallarından, saytlardan və başqa mənbələrdən informasiyanın alınması üçün mobil qurğulardan istifadə edilməsinə daha çox üstünlük verirlər.

Bəzən müəyyən obyektlər (konkret halda elektron kitablar) haqqında bu və ya digər informasiyanı tapmaq mümkün olmadığına görə, axtarışı məhz elə seqmentdə aparmaq lazımdır ki, istifadəçini (oxucunu) maraqlandıran informasiya bilavasitə həmin seqmentdə yerləşir. İstifadəçilərin müəyyən hərəkətlərinə uyğunlaşdırılmış mobil proqramlar bu cür informasiyanı intuitiv olaraq rahat və operativ tapmağa imkan verir. Digər tərəfdən, mobil qurğular praktik olaraq istənilən yerdə şəbəkəyə daxil olmağa imkan verir. Bu amil, əlbəttə informasiyanın əlyetərliyi baxımından da böyük üstünlük malikdir, yəni istifadəçi istədiyi vaxt həmin informasiyanı operativ şəkildə əldə edə bilər.

Məlumdur ki, mobil qurğular (smartfonlar, planşetlər və s.) həmişə əl altında olur və onlardan istifadə etmək imkanı fərdi kompüter və ya noutbukla müqayisədə qat-qat artıqdır. Məhz bu fakt bizi "Android" platformalı smartfonlar üçün Virtual kitabxananın proqram təminatını yaratmağa vadar etdi.

Biz bütün dünyada smartfonlardan istifadə haqqında statistikanı öyrənəndən sonra "Android" platformasının xeyrinə seçim etdik.

Bütün dünyada istifadə edilən smartfonların ümumi sayını 100% qəbul etsək, bu göstəricinin 80%-dən çox hissəsi "Android"lərin payına düşür.